# Nəcibliyə, insanpərvərliyə və humanizmə əsaslanan fəaliyyət

**Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ötən müddət ərzində gördüyü işlər xalqımız üçün, dövlətimiz üçün, sözün əsl mənasında dəyərli, faydalı olmuşdur. Ardıcıl və məqsədyönlü fəaliyyət nəticəsində Fond həm respublikamızda, həm də xaricdə, nüfuzlu beynəlxalq qurumlarda böyük hörmət qazanmışdır.**



Ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə bu ilin fevralında Mehriban xanım Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyin edilməsi cəmiyyətin sosial sifarişinə əsaslanan tarixi qərar kimi qarşılanmışdır. 2016-cı il sentyabrın 26-da ümumxalq referendumunun nəticəsi kimi təsis edilmiş bu vəzifəyə çoxşaxəli fəaliyyəti ilə milyonların sevgisini qazanmış layiqli bir şəxsiyyətin təyin olunması ölkənin müasir dövlət idarəetməsi sistemində keyfiyyətcə yeni mərhələnin başlanğıcı kimi dəyərləndirilməlidir. Mehriban xanım Əliyevanın Birinci vitse-prezident kimi fəaliyyəti Azərbaycanın inkişafına müstəsna töhfələr verir. Hər şeydən öncə Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunması milli və ictimai məzmunlu işlərin, mühüm nailiyyətlərin nəticəsidir. Bu həm də xalqımızın istəyinin ifadəsi, ölkəmizdə həyata keçirilən islahatlar strategiyası çərçivəsində atılmış məqsədyönlü addımlardandır.

Mehriban xanım Əliyevanın fəaliyyət dairəsi genişdir. Hər şeydən öncə Mehriban Əliyeva böyük xeyriyyəçidir. İllər öncə Heydər Əliyev Fondu yaranarkən insanlara qayğı və təmənnasız xidmət amalını prioritet elan edən ölkəmizin birinci xanımı öz səylərini əhalinin ən zəif müdafiə olunan təbəqələrinə, xəstə və valideyn himayəsindən məhrum olmuş uşaqlara, qocalara kömək göstərilməsinə yönəldir.

2004-cü ildən sonra geniş vüsət alan məktəb və xəstəxana tikintisində, müxtəlif xəstəliklərdən əzab çəkən uşaqlar üçün xüsusi tibb müəssisələrinin yaradılmasında, uşaq evlərinin, internat məktəblərinin, uşaq bağçalarının yenidən qurulmasında, tarixi və dini abidələrin bərpasında Mehriban Əliyevanın əzmkarlığını, təhsilimizin inkişafına, milli genefondumuzun qorunmasına xidmət edən əsl vətəndaşlıq missiyasını görürük. Mədəniyyətimizin təbliğini də Mehriban Əliyeva özünün vətəndaşlıq borcu hesab edir. Heydər Əliyev Fondunun, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun təşkil etdiyi beynəlxalq səviyyəli tədbirlər mədəniyyətimizin təbliğatçısına çevrilib. Onun xalq musiqisinin, muğamlarımızın inkişafındakı xidmətləri günümüzlə səsləşən addımlardır.

Mehriban xanımın Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi də səmərəli fəaliyyəti diqqət cəlb edir. Olimpiya Oyunlarında medal qazanmış idmançılara Heydər Əliyev Fondunun fərdi təqaüdçüsü adının verilməsi də idmanın inkişafına diqqət və qayğısının, bu istiqamətdə həyata keçirilən dövlət siyasətinə verilən töhfənin bariz nümunəsidir. Bütün bunlarla yanaşı, Mehriban Əliyeva dövlət başçısının ona həvalə etdiyi vəzifələri də uğurla yerinə yetirərək Azərbaycan dövlətinin beynəlxalq imicinin yüksəlməsinə layaqətlə xidmət edib. "Eurovision" mahnı müsabiqəsində olduğu kimi, I Avropa Oyunlarında da Mehriban Əliyevanın rəhbərlik etdiyi Təşkilat Komitəsi qısa müddət ərzində ən yüksək təşkilatçılıq nümunəsini ortaya qoydu. Mehriban Əliyeva respublikamızın Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin silahdaşı kimi dövlətimizə və xalqımıza layiqincə xidmət edəcək, Azərbaycanın çiçəklənməsinə öz töhfəsini verəcək. İndiyə qədər olduğu kimi, bundan sonra da növbəti uğurlara və nailiyyətlərə imza atacaq.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti "Rossiya 1" telekanalına müsahibəsində bildirib ki, yeni vəzifədə Prezidentin, ən başlıcası isə inamı, ümidləri olan insanların etimadını doğruldacaq: "Məni Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin etmək qərarı Azərbaycan Prezidentinin şəxsi təşəbbüsü olub. Əlbəttə, uzun illər ərzində təkcə Prezidentin xanımı deyil, həm də onun silahdaşı olmağım da yəqin ki, öz rolunu oynayıb". Azərbaycanın Birinci vitse-prezidenti müxbirin "Siz dərhal razılaşdınızmı?" sualına cavabında deyib: "Biz müzakirələr aparır, götür-qoy edirdik. Mənim əsas tərəddüdüm üzərimə qoyulan bu məsuliyyətin öhdəsindən nə dərəcədə gələ biləcəyim müstəvisində idi. Mən birmənalı şəkildə bilirəm və əminəm ki, dövlətin maraqları ilə həyat yoldaşımın mənə tövsiyələri və deyəcəkləri tamamilə üst-üstə düşəcək. Deməli, yanımda onun simasında birmənalı şəkildə mənə kömək edəcək, hər hansı çətinliyim olarsa, məni dəstəkləyəcək, düzgün yol göstərəcək bir şəxsiyyət var. Mən Prezidentin etimadını, ən başlıcası isə inamı, ümidləri olan insanların etimadını doğrultmalıyam".

Ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva beynəlxalq səviyyədə tanınan və hörmət bəslənilən xanım siyasətçidir. Heydər Əliyev Fondunun prezidenti kimi ötən illərdəki fəal təşəbbüsləri həm də Azərbaycanın bəşəri miqyasda tanınmasına, ölkəmiz haqqında obyektiv rəyin formalaşmasına, həmçinin respublikamızın beynəlxalq miqyaslı tədbirlərin təşkilatçısına çevrilməsinə xidmət etmişdir. Bu gün Azərbaycan çox böyük beynəlxalq tədbirlərə ev sahibliyi edir. Bu tədbirlər əslində dünyada sülhün, əmin-amanlığın bərqərar olması niyyəti ilə təşkil olunur.

Mehriban xanım Əliyevanın Azərbaycan dövləti və xalqı, eləcə də qadın siyasətinin inkişafında tarixi xidmətləri vardır. O, ölkənin birinci xanımı statusu ilə Azərbaycan cəmiyyətində novatordur. Dünyanın əksər ölkələrində dövlət rəhbərlərinin xanımlarının mədəni-sosial sahədə həyata keçirdikləri tədbirlər əsasında yaranan bu ənənənin Azərbaycanda formalaşdırılması məhz Mehriban xanım Əliyevanın qismətinə yazılıb. Bütövlükdə, qadınlarımız ölkəmizdə, o cümlədən dünyada baş verən proseslərə fəal münasibət bildirirlər. Azərbaycan qadınları hər zaman dünyada sülhün və sabitliyin tərəfdarı kimi çıxış edir.

Bu gün dünyada Azərbaycanın təbliğinə həsr olunmuş möhtəşəm tədbirlər keçirilir. Bu tədbirlərin əksəriyyətinə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva rəhbərlik edir. Onun gördüyü işlər çox unikal işlərdir. Azərbaycana münasibətdə indiyə qədər olan yanlış fikirlərin qarşısının alınmasında, dünyanın bizim haqqımızda təsəvvürünün müsbət mənada dəyişməsində Mehriban xanım öz məqsədlərinə çatır. Azərbaycanın mütərəqqi dövlət olduğu, xalqımızın mütərəqqi, istedadlı obrazı bütün dünyanın diqqətinə çatdırılır. Bu tədbirlərdə, o cümlədən Avropada baş tutan tədbirlərdə Azərbaycanın zəngin tarixi, mədəniyyəti və müasir dövrü təqdim olunur. Eləcə də, ölkəmizə gələn xarici qonaqlar xalqımızın qonaqpərvərliyini, ölkəmizin yüksəlişini görürlər. Və öz ölkələrinə qayıdarkən yalnız xoş təəssüratlarla ayrılırlar.

Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın mənəvi irsimizin qorunması istiqamətində ardıcıl fəaliyyəti Azərbaycanın milli-mənəvi dəyərlərinə yüksək hörmətin təzahürüdür. Təsadüfi deyil ki, Mehriban xanım Əliyeva YUNESKO-nun "Xoşməramlı səfiri" statusuna layiq görülüb. Bu, ümumilikdə dünya ictimaiyyətinin Mehriban xanımın timsalında bütün Azərbaycan xalqına, milli mədəniyyətimizə, folklorumuza, tariximizə, dinimizə, incəsənətimizə göstərdiyi diqqət kimi qəbul olunmalıdır. Bu gün Azərbaycan qadını Mehriban xanım Əliyevanın timsalında bir etibarlı dayaq görür, problemlərinə - mənəvi, ruhi, maddi ehtiyaclarına məlhəm qoyan, yardım edən çox doğma, munis Azərbaycan qadınının varlığına güvənir.

Azərbaycanın birinci xanımının bu strateji posta ən layiqli namizəd olduğunu cəmiyyətdə mütləq çoxluq etiraf edir, dövlət başçısının təyinatını ölkənin hazırkı və gələcək inkişaf perspektivləri baxımından vacib sayır. Mehriban xanım Əliyeva fəaliyyətində insan amilini hər zaman uca tutmuş, cəmiyyətdə vətənpərvərlik, humanizm, xeyirxahlıq kimi dəyərlərin möhkəm əsaslarla intişar tapmasına çalışmışdır.

Mehriban xanım Əliyeva görkəmli siyasi xadimdir, yüksək təşkilatçı, bacarıqlı idarəçidir, ulu öndər Heydər Əliyevin dövlətçilik kursunun ən fəal təmsilçilərindəndir. Ən əsası isə böyük vətənpərvər və qadın hərəkatının lideridir! Ölkənin birinci xanımı istər ictimai, istərsə də siyasi fəaliyyətində daim ulu öndərin amallarını yaşadır və təbliğ edir. Bu amallara tapınan UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva son illərdəki əzmkar fəaliyyəti ilə məhz belə bir ucalığa yüksəlmiş, cəmiyyətdə böyük nüfuz, ən əsası isə insanların sonsuz məhəbbətini, etimadını qazanmışdır. Azərbaycanın birinci xanımının təşəbbüsü ilə ilk günlərdən həyata keçirilən çoxşaxəli layihələri birləşdirən ümumi ortaq xətt milli genefondun qorunması, saf duyğuların ictimai şüurda möhkəmlənməsi olmuşdur.

Mehriban xanım Əliyevanın genişhəcmli ictimai fəaliyyəti bütün aydınlığı ilə diqqəti çəkir. Həyatının bir məqamında taleyini xalqın həyatı ilə birləşdirib, onun yeniləşməsi, inkişafı yolunda çalışmağa yönəltdi. Tanrının ona bəxş etdiyi belə bir missiyanı ləyaqətlə daşıması xalqına böyük sevgisinin ifadəsi idi. Sözün bu məqamında diqqəti son zamanların əlamətdar hadisələrindən birinə, I Avropa Oyunlarına yönəltmək istəyirəm. "Bakı-2015" ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyeva belə bir tədbirin möhtəşəm olmasından ötrü əsl azərbaycançılıq sevgisi, vətənpərvərlik duyğusuyla çalışdı. I Avropa Oyunlarının uğurla başa çatmasından böyük sevinc hissi yaşayan Birinci xanımın bağlanış mərasimindəki çıxışını xalqımız yəqin ki, hələ də unutmayıb. Vətənə və xalqa bəslədiyi məhəbbətin səsində və sözündə kövrək notlarla ifadə olunması o gün həmin tədbiri izləyən bütün insanları təsirləndirdi, könülləri duyğulandırdı. Bütün ölkə və Avropa dövlətləri Birinci xanımın sevincini, böyük qəlbədən doğan həyəcanını duydu, Onu sanki bir daha kəşf etdi, sevdi. I Avropa Oyunlarının qələbə ilə başa çatmasında "Bakı-2015" I Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyevanın 29 iyun 2015-ci il tarixində "Heydər Əliyev" ordeni ilə təltif olunması zənnimizcə ona indiyədək layiq görüldüyü saysız mükafatlardan daha çox sevinc hissi yaşatdı, onu çox duyğulandırdı. Bu mükafat da Onun halal haqqı idi.

Azərbaycana Birinci vitse-prezidentin bütün çıxışları, müsahibələri özünün zənginliyi, dərin məzmunu, yenilikçi düşüncəsi ilə böyük maraq doğurur. Bu, fitri istedad sahibinin millibəşəri ideallara sadiqliyi, dünya cəmiyyətinə nikbin baxışlarının məntiqi ifadəsidir. Ağlına, zəkasına görə də Onu başqa dövlətlərdə də tanıyır və hörmət edirlər. Onun genişmiqyaslı fəaliyyəti ölkənin ictimai-sosial, mədəni həyatını əhatə etməklə tükənmir. O, Azərbaycanın milli-mənəvi dəyərlərini, mədəniyyətini, ölkəmizin özünəməxsusluğunu, özəlliklərini, dünya cəmiyyətində böyük fədakarlıqla, uğurla təbliğ edir. Qədim ənənələrimizlə bağlı olan multikultural dəyərləri, tolerantlığı başqa ölkələrdə əməli işləri ilə nümayiş etdirir. Unutmayaq ki, bütün bunlar əfsanəvi bir qəhrəman tərəfindən deyil, zərif, incə təbiətli, həm də güclü, aydın təfəkkürə, təxəyyülə malik olan qadının - Mehriban xanım Əliyevanın bilavasitə çalışmaları sayəsində həyata keçirilir.

Ölkəmizdə İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə keçirilməsi üçün hazırlıq işləri də diqqət mərkəzində saxlanılıb. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi təşkilat komitələri ölkəmizdə bir neçə tədbiri ideal səviyyədə reallaşdırıb. Belə ki, hələ 2012-ci ildə Bakıda keçirilən "Eurovision" mahnı yarışması daha çox yüksək təşkilatçılıq işlərinə görə yadda qalıb. Ümumiyyətlə, Azərbaycanın Avropanın ən populyar mahnı müsabiqəsində iştirakının təşəbbüskarı Mehriban xanım Əliyevadır. Azərbaycanın "Eurovision" mahnı müsabiqəsində iştirakı 2008-ci ildən başlayır. Həmin ildən Azərbaycan təmsilçiləri qatıldıqları bütün yarışmaların hər birini uğurla başa vurublar. 2011-ci ildə isə Azərbaycan təmsilçiləri birinci yeri tutmaqla "Eurovision"u Azərbaycana gətirdilər. O vaxt cəmi bir il ərzində Mehriban xanım Əliyevanın sədrliyi ilə Təşkilat Komitəsi hazırlıq işlərini ən yüksək səviyyədə həyata keçirdi, müsabiqənin keçirildiyi "Baku Crystal Hall"ın tikintisi vaxtında başa çatdırıldı. Beləliklə, son illər çoxsaylı siyasi, mədəni, idman və digər səpkili beynəlxalq tədbirlərin keçirildiyi Azərbaycan dünyanın yaxından izlədiyi "Eurovision-2012" mahnı müsabiqəsinə də layiqincə ev sahibliyi etdi.

Birinci vitse-prezident həm də idmana yüksək qayğı və diqqəti ilə fərqlənir. Onun yüksək səviyyəli təşkilatçılığı ilə Azərbaycan bir sıra mötəbər beynəlxalq idman tədbirlərinə uğurla ev sahibliyi edib, eləcə də idman sahəsində mühüm göstəricilər və nailiyyətlər qeydə alınıb. Mehriban xanım Əliyeva 2002-ci ildə Azərbaycan Gimnastika Federasiyasının prezidenti, 2004-cü il dekabrın 28-də Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin (MOK) IV Baş Məclisində MOK-un İcraiyyə Komitəsinə üzv seçilib. Mehriban xanım Əliyevanın beynəlxalq aləmdə nüfuzu Beynəlxalq Gimnastika Federasiyasının Bədii Gimnastika üzrə 2003 və 2004-cü il Dünya Kuboku yarışlarının və 2005-ci il Dünya çempionatının Azərbaycanda keçirilməsinə dair qərarın qəbul olunmasında həlledici rol oynayıb. 2014-cü ilin iyununda isə Bakıda yeni inşa olunan Milli Gimnastika Arenasında bədii gimnastika üzrə yubiley - XXX Avropa çempionatı keçirilib. Bakıda keçirilən yubiley turnirində qitənin 33 ölkəsindən 258 idmançı mübarizə aparıb.

Eyni zamanda, 2015-ci ildə paytaxtımızda keçirilən ilk Avropa Oyunları zamanı Mehriban xanım Əliyevanın rəhbərliyi ilə çalışan "Bakı-2015" birinci Avropa Oyunları Təşkilat Komitəsinin üzvlərinin yüksək əzmkarlığı sayəsində gələcək Avropa Oyunlarının yüksək standartlarını məhz Azərbaycan müəyyənləşdirdi. Oyunların möhtəşəm açılış və bağlanış mərasimləri dünyaya Azərbaycanın güclü potensialını bir daha nümayiş etdirdi. Cari ildə Bakıda keçirilən IV İslam Həmrəylik Oyunlarının Təşkilat Komitəsi də Mehriban xanım Əliyevanın rəhbərliyi ilə uğurla fəaliyyət göstərdi, Azərbaycan IV İslam Həmrəylik Oyunlarına da uğurlu ev sahibliyi etdi.

Ötən illərin təcrübəsi də göstərir ki, uğurların qazanılmasında, yarışların yüksək səviyyədə təşkilində Təşkilat Komitəsinin xidmətləri danılmazdır. Mədəniyyət, incəsənət, idman bayramı kimi bütün Azərbaycan xalqının, qitə ölkələrinin tarixində əlamətdar hadisə kimi iz salan tədbirlərin yüksək səviyyədə təşkilində və mütəşəkkilliklə başa çatmasında səy və bacarığını əsirgəməyən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşkilatçılıq bacarığı, səyi, işə məsuliyyətlə yanaşma təcrübəsi bəhrəsini verir.

Ümumiyyətlə, Azərbaycan cəmiyyətinin Birinci vitse-prezidentin təyinatı ilə bağlı nikbin ovqatı Mehriban xanım Əliyevanın dövlət idarəçiliyində xalqa və dövlətə daha çox xeyir vermək imkanlarının genişlənməsi ilə bağlıdır. Yeni vəzifəyə təyinatla bağlı ona ünvanlanan çoxsaylı təbriklərlə əlaqədar insanlara təşəkkürünü bildirən Mehriban xanım Əliyeva demişdir: **"İndiyədək Heydər Əliyev Fondu bir çox əhəmiyyətli layihələr reallaşdırıb və mən bununla fəxr edirəm. Bu illər ərzində biz Azərbaycanın həyatında baş verən müsbət dəyişikliklərə öz töhfəmizi verməyi bacarmışıq. Amma yeni təyinat qarşıma artıq yeni hədəflər qoyur, yeni imkanlar açır. Mən gələcəyə nikbin baxıram. Çünki bu gün Azərbaycan qüdrətli, özünü təsdiq etmiş bir dövlətdir. Bizim inkişaf üçün böyük potensialımız, ən əsası isə insan kapitalımız vardır. Əziz dostlar, mən öz ölkəmə, sizə, bizim yaradıcılıq enerjimizə inanıram. Ölkəmizin gələcəyi, onun inkişafı və firavanlığı üçün bizim hər birimiz cavabdehik. Bu gün sizin səmimi diləkləriniz və dəstəyiniz mənim üçün çox vacibdir. Mən bu dəstəyi hər zaman, fəaliyyətimin bütün mərhələlərində hiss etmişəm. Hesab edirəm ki, əsl minnətdarlıq özünü yalnız sözdə deyil, konkret əməldə göstərməlidir. Sizi əmin edirəm ki, indiyədək önəm verdiyim prinsiplərə - öz Vətənimə və xalqıma xidmət, mərhəmət və ədalət, tolerantlıq və ümumbəşəri dəyərlərə bundan sonra da sadiq qalacağam".**

Bütün bunlar bir daha təsdiqləyir ki, fondun insan amilinin yüksəlişinə xidmət edən qlobal layihələri Heydər Əliyev ideyalarına sədaqətin və Azərbaycan Prezidenti cənab İlham Əliyevin Vətən, xalq naminə apardığı məqsədyönlü siyasətə dəstək vermək istəyinin əməli təzahürüdür. Şübhə yoxdur ki, fond bu sahədəki fəaliyyətini uğurla davam etdirəcək, ulu öndər Heydər Əliyevin ölməz ideyalarına söykənərək milli tərəqqi və intibah prosesinə layiqli töhfələrini verəcəkdir.

**Nəsib MƏHƏMMƏLİYEV,**
**Milli Məclisin üzvü.**